# Məzunlarımızın sorağı



**Müsahibimiz Biləsuvar Rayon Uşaq Musiqi Məktəbinin direktoru Mehman Rzayevdir. O, rəhbərlik etdiyi kollektivin keçdiyi inkişaf yolundan, qazanılmış uğurlardan söhbət açır.**

**Məlumat üçün bildirək ki, Rzayev Mehman Ağahüseyn oğlu 1964-cü il iyun ayının 1-də Puşkin rayonunda (indiki Biləsuvar rayonu) anadan olmuşdur.**

1979-cu ildə Biləsuvar rayon (keçmiş Puşkin rayonu) Ş. Qurbanov adına 2 saylı orta məktəbini və rayon 7-illik uşaq musiqi məktəbinin tar sinfini bitirmiş, elə həmin il A. Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbinə qəbul olmuşdur.1983-cü ildə həmin məktəbi tar ixtisası üzrə bitirərək Puşkin rayon (indiki Biləsuvar) 7-illik uşaq musiqi məktəbində tar müəllimi kimi əmək fəaliyyətinə başlamışdır.

1983-1985-ci illərdə hərbi xidmət keçmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra yenidən Biləsuvar rayon 7- illik uşaq musiqi məktəbində pedaqoji fəaliyyətini davam etdirərək, ictimai əsaslarla xalq çalğı alətləri şöbəsinin müdiri və tədris işləri üzrə direktor müavini vəzifələrində çalışmışdır.



1988-1993-cü illərdə Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında ali təhsil almışdır.

1993-cü ildən Biləsuvar rayon uşaq incəsənət məktəbinin direktorudur. Ailəlidir. İki övladı var. Qızı Nəzrin rayon uşaq incəsənət məktəbinin fortepiano sinfini bitirib . Hal-hazırda AMK- sı nəzdində Musiqi Kollecinə hazırlaşır.Oğlu Elmin məktəblidir. Həyat yoldaşı Rzayeva Xatirə Əkbər qızı ali təhsilli musiqişünasdır.



Məktəb 1967-ci ildə 7-illik uşaq musiqi məktəbi kimi yaradılmışdır. Həmin illərdə məktəbdə fortepiano və tar sinifləri fəaliyyət göstərirdi. Sonra məktəbin fəaliyyəti genişləndirilərək 1976-ci ildə kamança sinfi açılmışdır. 1989-cu ildən rəssamlıq sinfi açılaraq uşaq incəsənət məktəbinə çevrilmişdir.

1994-cü ildən qarmon və xanəndəlik muğam sinfi, 2009-cu ildən xoreoqrafiya sinfi açılmışdır. Hal-hazırda məktəbdə fortepiano, tar, kamança, qarmon, xanəndəlik (muğam), rəssamlıq və xoreoqrafiya ixtisasları tədris olunur. Məktəbin şagirdlərinin ümumi sayı 181 nəfərdir. Onlarla 44 müəllim məşğul olur. Onların 34 nəfəri məktəbin öz yetirmələridir.

Məktəbdə qabaqcıl müəllimlər çoxdur. Onlardan Akif Əsgərov, Şakir Tağıyev , Famil Qasımov (tar ixtisası üzrə), Xatirə Rzayeva (musiqi nəzəriyyəsi üzrə), Nadejda Ağayeva, Lətafət Adilova, Lalə Həsənova, Gülnurə Səfərova (fortepiano ixtisası üzrə), Hüseyn Kazımov (qarmon ixtisası üzrə), Səmayə Şükürova (xor sinfi üzrə), Saleh Mürsəlov (rəssamlıq ixtisası üzrə) və başqaları öz fəallıqları ilə seçilir.

Məktəbin musiqi şöbəsinin şagirdləri Uşaq musiqi və İncəsənət məktəblərinin xalq çalğı alətləri üzrə I - II, uşaq xor kollektivlərinin I-II-III-IV-V, uşaq muğam ifaçılarının I-II-III-IV-V respublika müsabiqələrində, Q. Qarayevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Gənc musiqiçilər təhlil və ifa edir" Elmi-İfaçılıq müsabiqəsində, ulu öndər H. Əliyevin 85 illik yubileyinə həsr olunmuş I respublika müsabiqəsində müvəffəqiyyətlə iştirak etmişlər.

Rəssamlıq şöbəsinin şagirdləri mütəmadi olaraq rayon Dövlət Rəsm Qalereyasında keçirilən sərgilərdə, respublika və beynəlxalq sərgi müsabiqələrində iştirak edirlər. Məktəbin müəllimləri, müəllim və şagirdlərdən ibarət xalq çalğı alətləri ansamblı, birləşmiş xoru, xanəndəlik (muğam) sinfi, xoreoqrafiya sinfinin şagirdləri rayon mədəniyyət evində, digər tədris və mədəniyyət müəssisələrində, rayonun mədəni və kütləvi tədbirlərində yaxından iştirak edirlər.



**Məktəbin onlarla məzunu orta ixtisas tədris müəssisələrində təhsil alırlar. 2009-2010-cu tədris ilində məktəbin 10 nəfər məzunu orta ixtisas məktəbinə qəbul olmuşdur. Məktəbin yetirmələri respublikanın müxtəlif təhsil ocaqlarında çalışırlar.**

**● B. ZAYRALIQIZI**